Azərbaycan, Bakı şəhəri, AZ1005, Yasamal rayonu, Azərbaycan prospekti, məhəllə 221, ev 14
Tel: (+994 12) 377 10 10, (+994 50) 253 55 22
www.qala-insurance.az

**AVTODAŞIYICILARIN VƏ EKSPEDİTORLARIN MÜLKİ MƏSULİYYƏTİNİN SIĞORTASI ÜZRƏ YADDAŞ VƏRƏQƏSİ**

**SIĞORTA HADİSƏSİ BAŞ VERDİKDƏ NƏ ETMƏK LAZIMDIR:**

- Respublikamızın istənilən məkanından və günün vaxtından asılı olmayaraq sığorta hadisəsinin baş verməsi barədə sığortalı və ya sığorta olunan şəxs, yaxud faydalanan şəxs hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verərək hadisə yerini tərk etməməlidir. Sığorta hadisəsi baş verdikdə "Qala Sığorta" ASC-nin qaynar xətt nömrəsinə, yəni ***(+994 50) 253 55 22,*** eyni zamanda qanuna uyğun olaraq hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına – Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin ***102*** qaynar xətt nömrəsinə, xəsarət alan varsa, onun həyatını xilas etmək üçün Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Təcili Yardım və digər lazımi qurumlara məlumat verin.
- Sığorta şirkətinin səlahiyyətli nümayəndələri ilə əlaqə saxlayarkən sizə dərhal sığorta hadisənin tənzimlənməsinə dair ilkin məsləhət və lazımi instruksiyalar veriləcəkdir.
- Sığorta şirkətinə hadisə barədə məlumat verildikdə aşağıda qeyd olunanlar bildirilməlidir:
- Sığortalının soyadı, adı, atasının adı;
- Sığorta şəhadətnaməsinin nömrəsi;
- Zərər çəkmiş tərəf barədə məlumat;
- Hadisənin təsviri, baş verdiyi tarix və vaxt;
- Ehtiyac olduqda digər məlumatlar.

**Sığortaçı sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edir:**

- Sığortaçının hadisənin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması ilə əlaqədar olaraq onun mənafeləri əhəmiyyətli dərəcədə pozulduqda, habelə zərər dəymiş əmlakın ona təqdim edilməsi ilə bağlı sığorta qaydalarının 27.1.5. və 27.1.6-ci bəndlərinə riayət edilmədikdə;
- Qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa, sığortalının, müvafiq hallarda zərərçəkənin sığorta hadisəsinin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə sığorta hadisəsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi;
- Müqavilə və ya qanunla hərbi risklərin sığortalanması nəzərdə tutulmadıqda hadisənin baş verməsinin hərbi əməliyyatlar və ya hərbi xarakterli tədbirlər hesab edilən halların nəticəsi olması;
- Sığortalının sığortalanmış əmlaka dəyən zərərin qarşısını almaq və ya həcmini azaltmaq üçün lazımi və mümkün tədbirləri görmək iqtidarında olduğu halda, həmin tədbirləri qəsdən görməməsi; bu zaman sığorta ödənişindən o həcmdə imtina edilə bilər ki, sığortalı mümkün tədbirləri görmüş olsaydı, zərərin miqdarı həmin həcmdə azalmış olardı;
- Sığortaçının sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına sığortalı tərəfindən maneçilik törədilməsi, o cümlədən sığorta qaydalarının 21-ci maddəsində müəyyən edilmiş məqsədlər üçün zəruri tədbirlərin görülməsi halları istisna olmaqla, digər hallarda əmlakın hadisə yerindən kənarlaşdırılmasının sığortaçını hadisənin səbəblərini və ya zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum etməsi;
- Sığorta qaydalarının 27.1.6-cı bəndi nəzərə alınmaqla, sığorta predmeti, həmçinin sığorta olunan şəxs və (və ya) sığorta hadisəsi barəsində sığortalının sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması;
- Əmlakın sığortası üzrə sığortalı, sığorta olunan və ya faydalanan şəxsin zərərin əvəzini tam olaraq zərər dəyməsində təqsirli olan şəxsdən alması; zərərvuran zərərin əvəzini qismən ödəmiş olduqda sığorta ödənişindən ödənilmiş məbləğ həcmində imtina edilir;
- Baş vermiş hadisənin qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilməməsi;
- Sığorta hadisəsinin sığorta haqqı və ya onun hər hansı bir hissəsinin sığorta müqaviləsində nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 gün sonra, sığortaçının bu barədə yazılı xəbərdarlıqla son ödəmə müddəti müəyyən edilmişdirsə bu müddətin bitməsindən 3 gün sonra baş verməsi halında sığorta haqqı və ya onun müvafiq hissəsi ödənilməmiş olduqda.
- Suallarınız və ya şikayətlərinizlə bağlı, zəhmət olmasa qeyd edilən əlaqə vasitələri üzrə müraciət edin:
- Tel.: 012 377 10 10, dax.2600;
  Elektron poçt (orkhan.veliyev@qala-insurance.az).
- HÜQUQLARINIZIN POZULDUĞUNU HESAB ETDİYİNİZ HALDA ŞİKAYƏT EDİN:
  Adı: Azərbaycan Respublikasının Mərkəzi Bankı
  Ünvan: Bülbül prospekti 27, AZ 1000, Bakı, Azərbaycan
  Əlaqə: +99412 493 50 58 və ya +99412 966

**ƏLAQƏ VASİTƏLƏRİ:**

| | |
|---|---|
| **Yanğınsöndürmə Xidməti** | **101** |
| **AR Daxili İşlər Nazirliyi / DYP** | **102** |
| **AR Səhiyyə Nazirliyi Təcili Yardım** | **103** |
| **AR Fövqəladə Hallar Nazirliyi** | **112** |